# Gözəllik dünyanı xilas edə biləcəkmi?



*Vahid MƏHƏRRƏMOV*

**Neçə vaxtdır koronovirus qırsaqqız olub yapışıb dünyanın yaxasından, buraxmaq istəmir. Deyəsən, Covid-19-un niyyəti çox çirkindir. Belə görünür ki, dünyanı dünyalıqdan çıxardana kimi yer üzündən uzaqlaşmaq fikri yoxdu. Niyə cəhənnəm olub çıxıb getmir dədəsinin xarabasına?**

Hamımız görürük ki, korono yer kürəsinə qədəm qoyandan dünyamız əvvəlki gözəllik və təravətini itirib. Elə bil bir az yazıqlaşıb. Dünyanın yaraşıqlı çağlarından heç bir əsər-əlamət qalmayıb. Hər şey rəngini və ahəngini dəyişib. Təəssüf ki, dəyişən yalnız dünyanın rəngi və ahəngi deyil. Korono dünya ilə bərabər insanları da yorub əldən salıb, həyatlarına ağrı-acılarla dolu narahatlıqlar qatıb. Bir şey də pisdi ki, insanların da dünyaya münasibəti dəyişib.

### *Korona yer üzünə ayaq açandan*

***həyatımızın gedişində, dünyanın gərdişində bir durğunluq, bir yorğunluq əmələ gəlib. Bu yorğunluq, bu durğunluq hər addımda ayaqlarımıza dolaşır, bizi sabahlara addımlamağa qoymur. Yekə bir dağ kimi, keçilməz bir sədd kimi qarşımızı kəsib irəli buraxmır. Amma taclı mələk bizə nə qədər xox gəlsə də, hədələsə də, aradabir dili dolaşıb kəkələsə də biz ruhdan düşmürük, yaşamaq və yaratmaq eşqimizin çırağını söndürməyə qoymuruq. Onu arzu və istəklərimizlə qidalandırırıq.***

Hiss olunur ki, dünyanın özü də koronanın əlindən zinhara gələrək köhnə çağlar üçün darıxır. Ötənləri xatırladıqca bir az da qəm dəryasının qərq olur. Tezliklə o günlərə qayıtmaq, həmişəki qaynar həyatın qoynuna atılmaq istəyir.

Bunun üçün insanlarla qolqola girib, kürək-kürəyə verib fırlana-fırlana virusla mübarizə aparır, özünü də, insanları da xilas etməyə çalışır.

### *Bu günlərdə*

***özünü ağıllı-kamallı hesab edən adamların hamısı bir yerə toplaşıb dünyanı taclı mələk adlı bəladan xilas etməyin yollarını arayır. Bu məqsədlə hər kəs bildiyini və bacardığını ortalığa qoyur. Hamı bir nəfər kimi əl-ələ tutub bütün insanların evi olan dünyanın xilasına çalışır. Bunun üçün yollar axtarır, cığırlar soraqlayır. Alimlər, həkimlər yoluxmadan internet vasitəsilə təcrübələrini bir-birilərinə öyrədirlər, fikirlərini bölbölüş edib paylaşırlar. Sanki dünya camaatını bulaşdığı virusdan yuyub təmizləmək üçün bulaqlaşırlar, göllərşirlər, çaylaşırlar.***

Ermənilər kimi çox həyasız olan korona da bu mübarizənin qarşısında əllərini üst-üstə qoyub boş dayanmır. Məğlub olmamaq üçün fəndlər işlədir, səngərlər qazır, yeni-yeni mövqelər tutur. Özünə yeni-yeni tərəfdarlar axtarır, daha müasir vasitələrlə silahlanır. Mutasiyadı, yoxsa nə tasiyadı, ondan oluna-oluna dondan-dona girir, şəkildən-şəklə düşür, başdan xarab olan adamlar kimi cildini tez-tez dəyişir. Buna görə də onunla mübarizə aparmaq işi mürəkkəbləşir, çətinləşir. Amma nə qədər çətinləşsə də biz sonacan mübarizə aparıb ona qalib gələcəyik. Nəyin bahasına olursa olsun, bu döyüşdən qalib ayrılacağıq.

Əgər belə çətin günlərində dünyadan üz döndərsək, mübarizə aparmasaq bəs onda onu kim və ya nə xilas edəcək?

Hamının başında sürətlə dolaşan bu və ya yaxud başqa sualların cavabı indi təkcə məni yox, bütün dünyasevərləri, həyatsevərləri və torpaqsevərləri bərk-bərk düşündürür. Gəlin, papağımızı qabağımıza qoyub əməlli-başlı fikirləşək. Fikirləşək görək dünyamızı virusun əlindən necə xilas edək, hansı üsul və metodlardan yararlanaq? Bunun üçün hansı dəyərli və gərəkli addımları ataq? İndiyə qədər işlədilməmiş hansı fəndi fırladıb koronanı asanlıqla tora salaq, sonra da onu gora yola salaq? Neujeli bu boyda dünyada, bu yekəlikdə işi öhdəsinə götürə bilən bir nəfər yoxdu? Yoxsa belə naxoş vaxtında heç kim ona yaxın durmaq istəmir, hər şeyi buraxır taleyin ümidinə? Xəstə olmayanda çoxları dünyaya sahib durmaq, onu bölüb-bölüşdürmək, hissələrə parçalamaq istəyirdi.

### *Bundan ötrü qanlar tökürdü,*

***canlar alırdı. Amma dünya bir az azarlayıb üç-dörd dəfə öskürən və qızdırması qalxan kimi hamı ona arxa çevirmək fikrinə düşür. Bəlkə bəziləri "Dünya mənim, dünya sənin, dünya heç kimin" misrasına aldanır?! Vallah, nəyə desəniz and içərəm ki, dünya hamımızındı. Dünyadan bizə çatacaq pay eynidi. Düzdür, bəzi görməmişlər imkan olan kimi bacardıqca onun daha çox hissələrini qamarlamağa çalışırlar. Amma bir az keçərkeçməz dünya həmin artıq payı onun özü ilə bərabər "hopbalara" aparır. Gəlin əl-ələ verib azarlı vaxtı dünyamızı qoruyaq, düşdüyü bu ağır xəstəlikdən - koronadan onu xilas edək! Sonra ya baş-başa, ya da kürək-kürəyə verib arın-arxayın onun üstündə yaşayaq.***

Dahi rus yazıçısı Dostayevski "İdiot" əsərində yazırdı ki, dünyanı gözəllik xilas edəcək. Bəlkə də çoxları buna arxayın olub çəkilib durub bir qıraqda. Gözləyirlər ki, görsünlər gözəllik dünyanı necə və nə vaxt xilas eliyəcək. Oxuyanlar bilir ki, həmin əsərdə bu fikir obrazın dilindən hökm kimi səsləndirilmir. Elə belə, sözgəlişi deyilir. Bu kəlmələri eşidəndə həmsöhbəti də qayıdıb belə cavab verir: "Bu nə danışır əə, gözəllik dünyanı xilas edəcək?" Yəni heç obrazın özü də dediklərinə tam inanmır, şübhə ilə yanaşır. Əgər sözün yiyəsi özü öz dediklərinə əmin deyilsə, tədəddüt edirsə, əcəba, biz niyə onun söylədiklərinə inanmalıyıq? Amma bu fikrə etirazımız da yoxdu. Necə deyərlər, bu meydan, bu da şeytan. Qoy gözəllik buyurub dünyamızı düşdüyü bu ağır bəladan xilas eləsin. Bəs görəsən gözəllik bu ağır işin öhdəsindən təkbaşına gələ biləcəkmi?

**Bu suala cavab axtara-axtara görürük ki, Covid-19 dünyanın gözəlliklərini məhv etməkdədir. Minləri apardı, Azərbaycanda yüzləri apardı, beş jurnalistin ömrünə qıydı. Bəs belə bir vəziyyətdə yazıq gözəllik dünyanı təkbaşına necə xilas edəcək? Mənə elə gəlir ki, dünyanı koronadan insanların bir-birilərinə xoş münasibətləri, dostluqları, qarşılıqlı anlaşmaları, səmimi yanaşmaları, bir-birilərinə sevgi və istəkləri, qardaşcasına mehribanlıqları, bir də gigiyenik tələblərə ciddi əməl etmələri qurtaracaq.**

Ədalət.- 2020.- 10 sentyabr. S. 7.